

**Süleymanov Fizuli Bahadur oğlu**

Fizuli Bahadur oğlu Süleymanov 1992-ci il fevralın 20-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub. 2007-2016-cı illərdə İ.Mürşüdov adına Aşağı Quşçu kənd tam orta məktəbində təhsil alıb.

Fizuli Süleymanov 2010-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsində xidmət edib. 2012-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edirdi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Fizuli Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak edib. Fizuli Süleymanov Suqovuşan döyüşləri zamanı şəhid olub. 02 oktyabr 2020-ci il tarixdə Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Süleymanov Fizuli Bahadur oğlu "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", “İgidliyə görə” medalları ilə təltif edilib.